# “BTB Kapital Investisiya Şirkəti” ASC

**Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

31 Dekabr 2022-ci il tarixində bitən il üzrə

# "BTB Kapital İnvestisiya Şirkəti" ASC

## MÜNDƏRICAT

Səhifə


MÜSTƏQİL AUDİTORUN RƏYİ ........ 1-2

31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARI:

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT ........ 3

MALİYYƏ VƏZIYYƏTİ HAQQINDA HESABAT ........ 4

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 5

PUL HƏRƏKƏTLƏRİ HAQQINDA HESABAT ........ 6

MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR:

1. Giriş ........ 7
2. Mühüm uçot siyasətləri ........ 7
3. Əməliyyat gəlirləri ........ 16
4. Işçi heyəti ilə bağlı xərclər ........ 16
5. Komissiya xərcləri ........ 17
6. Agent xərcləri ........ 17
7. Digər əməliyyat xərcləri ........ 17
8. Faiz xərcləri ........ 17
9. Mənfəət vergisi ........ 17
10. Qeyri-maddi aktivlər və əsas vəsaitlər ........ 18
11. Uzun-müddətli investisiyalar ........ 19
12. Pul və pul ekvivalentləri ........ 19
13. Müştərilərin investisiya portfeli ........ 19
14. Adi səhmlər ........ 19
15. Qısa-müddətli investisiyalar üzrə öhdəliklər ........ 20
16. Kreditor borcları və digər öhdəliklər ........ 20
17. Əlaqəli tərəflər ilə əməliyyatlar ........ 20
18. Maliyyə risklərinin idarə olunması ........ 21
19. Şərti öhdəliklər və əməliyyat riskləri ........ 22
20. Hesabat dövründən sonra baş vermiş hadisələr ........ 22

Davud Mamedov
Accounting, Financial Advisory

Globus Center, 16-th floor, AZ1065, J.Jabbarli 609, Baku, Azerbaijan
+994 12 4048548
www.davudmamedov.com

# MÜSTƏQİL AUDİTORUN RƏYİ

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarları və Direktoruna:

## Rəy

Biz "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarətmə Səlahiyyətləri olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ya uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını planlaşdırıb həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını planlamaq üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Davud Mamedov MMC

3 aprel 2023-cü il
Bakı, Azərbaycan

## “BTB Kapital İnvestisiya Şirkəti” ASC

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| Əməliyyat gəlirləri | 3 | 891,586 | 1,111,630 |
| **Cəmi gəlirlər** | | **891,586** | **1,111,630** |
| İşçi heyəti ilə bağlı xərclər | 4 | (234,031) | (269,842) |
| Komissiya xərcləri | 5 | (280,051) | (307,640) |
| Agent xərcləri | 6 | (2,520) | (42,097) |
| Digər əməliyyat xərcləri | 7 | (320,213) | (368,820) |
| **Cəmi əməliyyat xərcləri** | | **(836,815)** | **(988,399)** |
| **Əməliyyat mənfəəti** | | 54,771 | 123,231 |
| Faiz gəlirləri | | 78,874 | 122,549 |
| Faiz xərcləri | 8 | (1,353) | (101,178) |
| İnvestisiya gəliri | | 4,957 | 4,972 |
| Xarici valyuta məzənnələri üzrə fərqlər | | (14,000) | (487) |
| **Cəmi qeyri-əməliyyat gəlirləri və xərcləri** | | **68,478** | **25,856** |
| **Vergidən əvvəlki mənfəət** | | **123,249** | **149,087** |
| Mənfəət vergisi | 9 | (24,157) | (29,320) |
| **Xalis mənfəət** | | **99,092** | **119,767** |
| Digər məcmu gəlir | | - | - |
| **İl üzrə məcmu gəlir** | | **99,092** | **119,767** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

Cəfər İbrahimov

Direktor müavini
Maliyyə direktoru vəzifəsi üzrə icraçı

3 aprel 2023

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

## "BTB Kapital İnvestisiya Şirkəti" ASC

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2022-CI İL TARİXİNƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|---|
| Pul və pul ekvivalentləri | 12 | 978,559 | 3,206,045 |
| Ticarət və sair debitor borcları | | 8,277 | 24,750 |
| Qısamüddətli investisiyalar | | - | 20,250 |
| Müştərilərin investisiya portfeli | 13 | 2,203,691 | 172,774 |
| **CƏMİ CARİ AKTİVLƏR** | | **3,190,527** | **3,423,819** |
| Qeyri-maddi aktivlər | 10 | 96,421 | 96,682 |
| Əsas vəsaitlər | 10 | 8,869 | 10,905 |
| Uzunmüddətli investisiyalar | 11 | 458,600 | 48,600 |
| **CƏMİ UZUNMÜDDƏTLI AKTIVLƏR** | | **563,890** | **156,187** |
| **CƏMİ AKTİVLƏR** | | **3,754,417** | **3,580,006** |
| Qısamüddətli investisiyalar üzrə öhdəliklər | 15 | 2,264,260 | 2,175,607 |
| Kreditor borcları və digər öhdəliklər | 16 | 99,969 | 114,740 |
| **CƏMİ CARI ÖHDƏLIKLƏR** | | **2,364,229** | **2,290,347** |
| Təxirə salınmış vergi | | 6,049 | 4,612 |
| **CƏMİ UZUNMÜDDƏTLI ÖHDƏLIKLƏR** | | **6,049** | **4,612** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **2,370,278** | **2,294,959** |
| Adi səhmlər | 14 | 1,000,000 | 1,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 384,139 | 285,047 |
| **CƏMİ KAPITAL** | | **1,384,139** | **1,285,047** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **3,754,417** | **3,580,006** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

Cəfər İbrahimov

Direktor müavini
Maliyyə direktoru vəzifəsi üzrə icraçı

3 aprel 2023

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

“BTB Kapital İnvestisiya Şirkəti” ASC

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Adi səhmlər | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **1,000,000** | **165,280** | **1,165,280** |
| İl üzrə cəmi məcmu gəlir | - | 119,767 | 119,767 |
| **31 dekabr 2021-ci il** | **1,000,000** | **285,047** | **1,285,047** |
| İl üzrə cəmi məcmu gəlir | - | 99,092 | 99,092 |
| **31 dekabr 2022-ci il** | **1,000,000** | **384,139** | **1,384,139** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

Cəfər İbrahimov

Direktor müavini
Maliyyə direktoru vəzifəsi üzrə icraçı

3 aprel 2023

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

## "BTB Kapital İnvestisiya Şirkəti" ASC

**PUL HƏRƏKƏTLƏRİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL HƏRƏKƏTLƏRİ** | | | |
| Müştərilərdən mədaxil | | 922,196 | 1,129,206 |
| Faiz gəlirləri | | 78,784 | 122,549 |
| Kreditorlara ödənişlər | | (585,210) | (742,752) |
| Faiz xərcləri | | (1,353) | (101,178) |
| Vergi ödənişləri | | (14,107) | (72,012) |
| İşçi heyəti ilə bağlı ödənişlər | | (261,532) | (193,719) |
| **Əməliyyat aktivlərində xalis dəyişikliklərdən əvvəlki xalis əməliyyat hərəkəti** | | **138,778** | **136,464** |
| **Əməliyyat aktivlərində xalis dəyişikliklər:** | | | |
| Qoyulmuş uzun-müddətli investisiyalar | | (410,000) | (48,600) |
| Qoyulmuş qısa-müddətli investisiyalar | | (2,030,917) | (76,924) |
| Qısa-müddətli investisiyalar üzrə öhdəliklər | | 88,653 | 1,942,017 |
| **Əməliyyat fəaliyyətindən xalis pul hərəkətləri** | | **(2,213,486)** | **1,952,957** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL HƏRƏKƏTLƏRİ** | | | |
| Alınmış dividendlər | | - | 4,475 |
| Əsas vəsaitlərin alışı | 10 | - | (7,320) |
| Qeyri-maddi aktivlərin alışı | 10 | - | (8,710) |
| **İnvestisiya fəaliyyətindən xalis pul hərəkətləri** | | **-** | **(11,555)** |
| **İLİN ƏVVƏLİNƏ PUL VƏ PUL EKVİVALENTLƏRİNİN QALIĞI** | 12 | **3,206,045** | **1,259,011** |
| Məzənnə fərqləri | | (14,000) | - |
| Xalis artım | | (2,213,486) | 1,947,034 |
| **İLİN SONUNA PUL VƏ PUL EKVİVALENTLƏRİNİN QALIĞI** | 12 | **978,559** | **3,206,045** |

Cəmiyyətin rəhbərliyi adından:

Ruslan Cəfərov

Direktor
Bakı, Azərbaycan

Cəfər İbrahimov

Direktor müavini
Maliyyə direktoru vəzifəsi üzrə icraçı

3 aprel 2023

7-23 səhifələrdə təqdim olunmuş qeydlər bu hesabatın ayrılmaz hissəsidir

## 1. GİRİŞ

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") 15 fevral 2018-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və təsis olunmuşdur. Cəmiyyət Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı investisiya şirkəti fəaliyyətinə icazə verən müddətsiz lisenziya əsasında fəaliyyət göstərir. Cəmiyyət 25 dekabr 2018-ci il tarixindən Bakı Fond Birjasının üzvüdür.

Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında qiymətli kağızlar bazarına, eləcə də beynəlxalq səviyyədə maliyyə bazarları alətlərinə investisiya yatırmaq istəyən müştərilərə vasitəçilik xidmətləri və diler xidmətlərinin göstərilməsindən ibarətdir. Cəmiyyət tərəfindən göstərilən əsas investisiya xidmətləri aşağıdakılardır:

- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- fərdi investorların portfelinin idarə edilməsi;
- investisiya məsləhətlərinin verilməsi;
- qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
- qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
- mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;
- marja ticarəti.

Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer: Y.Səfərov küç. 27, Bakı, Azərbaycan, AZ1025.

## 2. MÜHÜM UÇOT SİYASƏTLƏRİ

### Hesabatların uyğunluğunun bəyanatı

Cəmiyyətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Təqdimatın əsasları

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

### Ölçülmənin əsasları

Ədalətli dəyər ölçmə tarixində, əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə, Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq

üçün qəbul edilmiş və ya öhdəliyi köçürmək üçün ödəniləcək qiymətdir. Öhdəliyin ədalətli dəyəri onun yerinə yetirilməmə riskini əks etdirir.

Mümkün olduqda, Cəmiyyət fəal bazarda həmin alət üçün elan olunmuş qiymətlər üzrə alətin ədalətli dəyərini ölçür. Bazar, qiymətləndirmə məlumatlarını təmin etmək üçün aktivlər və ya öhdəliklər üzrə əməliyyatlar davamlı olaraq kifayət qədər tezlikdə və həcmdə baş verdikdə fəal hesab olunur. Fəal bazarda təyin edilmiş qiymət olmadıqda Cəmiyyət, müşahidə edilə bilən müvafiq məlumatların istifadəsini artıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Seçilmiş qiymətləndirmə üsulu, bazar iştirakçıları əməliyyata qiymət təyin edərkən nəzərə aldıqları bütün amilləri özündə birləşdirir. Ədalətli dəyəri ölçülən və maliyyə hesabatlarında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- Səviyyə 1 – Fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – Aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – Ədalətli dəyər qiymətləndirərkən aktiv və ya öhdəliklər üçün müşahidə edilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatlar daxil olan qiymətləndirmə üsulundan istifadə edilir (müşahidə edilməyən məlumatlar).

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat**

Cəmiyyət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Cəmiyyət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- hesabat tarixindən sonra ən az on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Cəmiyyət aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Cəmiyyət öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

**Funksional və təqdimat valyutası**

Təmir və mühafizə xərcləri baş verdikdə mənfəət və ya zərər haqqında hesabat və digər məcmu gəlir hesab edilir. Köhnəlmə, əsas vəsaitlərinin ilkinə dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla düz xəttə metodu istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini faydalı xidmət müddəti tətbiq edilir:

| | |
|---|---|
| Mebel və qurğular | 25% |
| Kompüter avadanlıqları | 25% |

İstifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktivlər üzrə amortizasiya hesablanmır.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əsas vəsaitlərin və qeyri-maddi aktivlərinin tanınmasına xitam verilir. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

## Pul və pul ekvivalentləri

Pul və pul ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə banklarda yerləşən cari hesablar və ödəmə müddəti üç aydan az olan bank depozitləri daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudlaşdırılmış vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul və pul ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınır.

## Məhdudiyyət qoyulmuş pul vəsaitləri

Məhdudiyyət qoyulmuş pul vəsaitləri nəğd pul və pul vəsaitlərinin ekvivalentlərindən ayrıca göstərilir.

## Maliyyə aktivləri və öhdəlikləri

Təsnifat

Maliyyə aktivləriİlkin tanınma zamanı maliyyə aktivi ya amortizasiya edilmiş dəyərdə, ya sair məcmu gəlirlərdə əks olunan ədalətli dəyərdə, ya da mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirilən aktiv kimi təsnif edilir. Maliyyə aktivi aşağıdakı şərtlərə cavab verdikdə və mənfəət və ya zərərdə əks olunan ədalətli dəyər kateqoriyasına aid olmadıqda amortizasiya edilmiş dəyərdə qiymətləndirilir:

- aktiv məqsədi müqavilə üzrə pul vəsaitlərini toplamaq olan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə sırf əsas borc və faiz ödəmələrindən ibarət pul vəsaitlərinin daxil olmasına səbəb olur.

Borc aləti yalnız aşağıdakı şərtlərə cavab verdikdə və mənfəət və ya zərərdə əks olunan ədalətli dəyər kateqoriyasına aid olmadıqda sair məcmu gəlirdə əks olunan ədalətli dəyərdə qiymətləndirilir:

•aktiv məqsədi müqavilə üzrə pul vəsaitlərini toplamaq və maliyyə aktivlərini satmaq olan biznes modeli çərçivəsində saxlanılır; və

•maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas borc və faiz ödəmələrindən ibarət pul vəsaitlərinin daxil olmasına səbəb olur.

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivləri kimi mənfəət və ya zərərdə tanınan aşağıdakılar istisna olmaqla, sair məcmu gəlirdə əks olunan ədalətli dəyərdə qiymətləndirilən borc maliyyə aktivləri üzrə mənfəət və zərər sair məcmu gəlirdə tanınır:

•effektiv faiz metodundan istifadə etməklə faiz gəliri;

•gözlənilən kredit zərərləri vəəvəzləşdirm ələr; və

•xarici valyuta mübadiləsi üzrə gəlirlər və zərərlər.

Sair məcmu gəlirdə ədalətli dəyərdə ölçülən borc maliyyə aktivinin tanınması dayandırıldıqda sair məcmu gəlirdə tanınan gəlir və ya zərər cəmi kapitaldan silinərək mənfəət və ya zərərə aid edilir. Ticarət üçün saxlanılmayan kapital investisiyasının ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdə baş verəcək əlaqədar dəyişiklikləri sair məcmu gəlirdə təqdim etmək barədə dəyişməz seçim edə bilər. Bu seçim hər investisiya üçün fərdi qaydada edilir.

Belə kapital alətləri üzrə gəlirlər və zərərlər heç zaman mənfəət və ya zərərdə təkrar təsnif edilmir və mənfəət və ya zərərdə heç bir dəyərsizləşmə tanınmır. Dividendlər mənfəət və ya zərərdə tanınır. İnvestisiya xərclərinin bir qisminin bərpasını aydın əks etdirən dividendlər istisnadır. Belə ki, bu halda onlar sair məcmu gəlirdə tanınır. Sair məcmu gəlirdə tanınan gəlirlər və zərərlərin cəmi investisiya ləğv edilərkən bölüşdürülməmiş mənfəətə köçürülür. Bütün digər maliyyə aktivləri mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərlə qiymətləndirilən kateqoriyasına təsnif edilir.

Biznes modelinin qiymətləndirilməsi

Cəmiyyət aktivin portfel səviyyəsində saxlandığı biznes modelin məqsədini qiymətləndirir, belə ki, bu biznesin necə idarə edildiyini və rəhbərliyə təqdim edilən məlumatı daha yaxşı əks etdirir. Bu zaman aşağıdakı məlumat nəzərə alınır:

-portfel üçün müəyyən edilən siyasət və məqsədlər və bu siyasətlərin təcrübədə tətbiqi. Xüsusilə də rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin qazanılmasına, müəyyən faiz dərəcəsini saxlamağa, maliyyə aktivlərinin müddətinin bu aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırmağa və ya aktivləri satmaqla pul vəsaitlərini reallaşdırmağa yönəldiyi və ya yönəlmədiyi;

-portfelin fəaliyyəti necə qiymətləndirilir və Cəmiyyət rəhbərliyinə necə hesabat verilir;

-biznes modelinin işinə (və bu biznes modeli çərçivəsində saxlanan maliyyə aktivlərinə) təsir göstərən risklər və bu risklər necə idarə edilir;

-biznes rəhbərlərinin haqqı necə ödənilir, məs., bu haqq idarə edilən aktivlərin ədalətli dəyərinə yoxsa müqavilə üzrə yığılan pul vəsaitlərinə əsaslanır və;

-əvvəlki dövrlərdə satış tezliyi, həcmi və vaxtı, belə satışların səbəbi və gələcək satış fəaliyyəti barədə yaratdığı gözləntilər. Bununla belə, satış fəaliyyəti haqqında məlumata ayrıca deyil, Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün müəyyən etdiyi məqsədə necə nail olunmasının və pul vəsaitlərinin necə əldə edilməsinin ümumi qiymətləndirilməsinin bir hissəsi kimi baxılır.

Ticarət məqsədləri üçün saxlanılan və ya fəaliyyəti ədalətli dəyər əsasında qiymətləndirilən maliyyə aktivləri mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirilir, belə ki, onlar nə müqavilə üzrə pul vəsaitlərinin toplanması, nə də eyni zamanda həm müqavilə üzrə pul vəsaitlərinin toplanması, həm də maliyyə aktivlərinin satışı üçün saxlanılır.

Müqavilə üzrəpul vəsaitlərinin sırf əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığının qiymətləndirilməsi

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul vəsaitlərinin sırf əsas borc və faiz ödənişləri olub-olmadığını qiymətləndirərkən Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alır. Bura maliyyə aktivi üzrə müqavilədə pul vəsaitlərinin müddətini və ya məbləğini dəyişərək əsas borc və faiz ödənişi meyarına cavab verməməsinə səbəb olacaq şərtin olub-olmadığının qiymətləndirilməsi daxildir. Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alır:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- maliyyə levereci;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılması şərtləri;
- Cəmiyyətin müəyyən aktivlərdən gələn pul axınlarına olan iddialarını məhdudlaşdıran şərtlər (məs., reqressiz aktivlər); və
- pulun zaman dəyərini dəyişən xüsusiyyətlər, məsələn, faiz dərəcələrinin mütəmadi yenilənməsi.

Təkrar təsnifat

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etdiyi biznes modelini dəyişdikdən sonrakı dövr istisna olmaqla, ilkin tanınmadan sonra təkrar təsnif edilmir.

*Maliyyə öhdəlikləri*

Cəmiyyət maliyyə təminatları və kredit öhdəliklərindən fərqli maliyyə öhdəliklərini amortizasiya edilmiş dəyərdə və ya mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirir. Maliyyə öhdəlikləri (maliyyə təşkilatları və müştərilərin əmanətləri, müddətli borc vəsaitləri və sair maliyyə öhdəlikləri daxil olmaqla) ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə, daha sonra effektiv faiz metodu ilə və faiz xərcləri faktiki gəlir əsasında tanınmaqla amortizasiya edilmiş dəyərdə qiymətləndirilir.

Təkrar təsnifat

Maliyyə öhdəlikləri ilkin tanınmadan sonra təkrar təsnif edilmir.

(ii)Tanınmanın dayandırılması

Maliyyə aktivləri

Cəmiyyət maliyyə aktivini tanımağı o zaman dayandırır ki, maliyyə aktivindən gələn pul vəsaitlərinə olan müqavilə hüquqlarının müddəti bitir və ya əməliyyatda müqavilə üzrə pul vəsaitlərini almaq hüququnu ötürür ki, bu halda maliyyə aktivlərin əsahib olmaqla bağlı bütün risklər və faydalar da ötürülür və ya Cəmiyyət sahibliklə bağlı bütün riskləri və faydaları nə ötürür, nə də özündə saxlayır və maliyyə aktivinə nəzarəti özündə saxlamır.

Maliyyəaktivinin tanınması dayandırıldıqda aktivin ümumi balans dəyəri (və ya aktivin tanınması dayandırılmış hissəsinə aid edilən ümumi balans dəyəri) və (i) əldə edilmiş məbləğ (o cümlədən əldə edilmiş hər hansı yeni aktiv, çıxılsın götürülmüş hər hansı yeni öhdəlik) və (ii) sair məcmu gəlirdə tanınan hər hansı toplam gəlir və zərərin cəmi arasındakı fərq mənfəət və ya zərərdə tanınır. Sair məcmu gəlirdə əks olunan ədalətli dəyərdə təyin olunan kapital investisiya qiymətli kağızları ilə əlaqəli sair məcmu gəlirdə tanınan toplam gəlir/zərər belə qiymətli kağızların tanınması dayandırılarkən mənfəət və ya zərərdə tanınmır. Cəmiyyət tərəfindən yaradılan vəya saxlanılan tanınması dayandırılmalı olan köçürülən maliyyə aktivləri üzrə faiz ayrıca aktiv və ya öhdəlik kimi tanınır.

Cəmiyyət maliyyə vəziyyəti haqqında hesabatında tanınan aktivlərin ötürüldüyü əməliyyatlarda iştirak edir, lakin ötürülən aktivlər və ya onların bir qisminə aid risk və faydaların ya hamısını, ya da əhəmiyyətli hissəsini saxlayır. Belə hallarda ötürülən aktivlərin tanınması dayandırılmır. Belə əməliyyatlara misal kimi qiymətli kağızların icarəsini və satış və repo əməliyyatlarını göstərmək olar. Cəmiyyətin maliyyə aktivi üzrə risk və mülkiyyət hüquqlarının əhəmiyyətli hissəsini saxlamadığı,

ötürmədiyi və aktiv üzərində nəzarəti saxladığı əməliyyatlarda Cəmiyyət ötürülən aktivin dəyərindəki dəyişikliklərin təsirinə məruz qaldığı dərəcədə aktivi tanımaqda davam edir.

Maliyyə öhdəlikləri

Cəmiyyət müqavilə üzrə öhdəlikləri yerinə yetirildikdə və ya ləğv edildikdə və ya müddəti bitdikdə maliyyə öhdəliyini tanımağı dayandırır.

**Maliyyə aktivləri və maliyyə öhdəliklərinin modifikasiyası**

Maliyyə aktivləri

Maliyyə aktivinin şərtləri dəyişərsə, Cəmiyyət dəyişmiş aktiv üzrə pul vəsaitlərinin əhəmiyyətli dərəcədə dəyişib-dəyişmədiyini qiymətləndirir. Pul vəsaitlərində əhəmiyyətli fərqlər olduğu təqdirdə ("əhəmiyyətli modifikasiya") ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə üzrə hüquqların vaxtı keçmiş sayılır. Belə olan halda ilkin maliyyə aktivinin tanınması dayandırılır və yeni maliyyə aktivi müvafiq əməliyyat xərcləri daxil olmaqla ədalətli dəyərdə tanınır. Modifikasiya ilə əlaqədar daxil olan istənilən haqların uçotu aşağıdakı şəkildə aparılır:

- yeni aktivin ədalətli dəyərinin müəyyən edilməsi zamanı nəzərəalınan haqlar və müvafiq əməliyyat xərclərinin ödəniş haqları aktivin ilkin qiymətləndirilməsinə daxil edilir; və
- sair haqlar tanınmanın dayandırılması üzrə gəlir və ya zərərin bir hissəsi kimi mənfəət və ya zərərdə tanınır.

Mövcud maliyyə aktivləri və ya maliyyə öhdəlikləri üzrə pul vəsaitlərində modifikasiya mövcud müqavilə şərtlərindən qaynaqlandığı təqdirdə modifikasiya sayılmır. Məsələn, kredit sövdələşməsi Cəmiyyətdən tələb etdiyi təqdirdə ARMB-nin əsas faiz dərəcələrindəki dəyişikliklərə görə Cəmiyyətin faiz dərəcələrinə tətbiq etdiyi modifikasiyalar.

Cəmiyyət modifikasiyanın əhəmiyyətli olub-olmadığına, yəni ilkin maliyyə aktivi və dəyişikliyə uğramış və ya yeri dəyişdirilmiş maliyyə aktivi üzrə pul vəsaitlərinin əhəmiyyətli dərəcədə fərqləndiyinə dair kəmiyyət və keyfiyyət qiymətləndirməsi aparır. Cəmiyyət kəmiyyət və keyfiyyət amillərinə əsaslanaraq modifikasiyanın əhəmiyyətli olub-olmadığını növbəti ardıcıllıqda qiymətləndirir: keyfiyyət amilləri, kəmiyyət amilləri, keyfiyyət və kəmiyyət amillərinin birgə təsiri. Pul vəsaitləri əhəmiyyətli dərəcədə fərqləndiyi təqdirdə ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə hüquqlarının vaxtı bitmiş sayılır. Bu qiymətləndirmə zamanı Cəmiyyət maliyyə öhdəliklərinin tanınmasının dayandırılması təlimatını nümunə götürür. Cəmiyyət aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq modifikasiyanın əhəmiyyətli olduğu qənaətinə gəlir:

–maliyyə aktivinin valyutasının dəyişməsi;
–girov və digər kredit təminatlarının dəyişməsi;
–maliyyə aktivinin şərtlərində əsas məbləğ və faiz ödəmələri (SPPI) meyarına uyğunsuzluqla nəticələnən dəyişiklik (məs., konvertasiya funksiyasının əlavə edilməsi).

Pul vəsaitləri borcalanın maliyyə çətinlikləri yaşadığı zaman modifikasiya edilərkən, adətən modifikasiyanın məqsədi şərtləri əhəmiyyətli dərəcədə fərqlənən yeni aktiv yaratmaq deyil, ilkin müqavilə şərtlərinin mümkün qədər bərpa edilməsidir. Cəmiyyət maliyyə aktivini pul vəsaitlərinin bağışlanması ilə nəticələnəcək şəkildə dəyişməyi planlaşdırdıqda ilk öncə aktivin bir hissəsinin modifikasiyadan əvvəl silinib-silinməyəcəyini nəzərə alır (borcların silinməsi siyasəti aşağıda təqdim edilib). Bu yanaşma kəmiyyət qiymətləndirməsinə təsir göstərir və belə hallarda tanınmanın dayandırılması meyarlarının heç də həmişə nəzərə alınmadığını göstərir. Daha sonra Cəmiyyət modifikasiyanın əhəmiyyətli olub-olmadığına dair keyfiyyət qiymətləndirməsi aparır.

Amortizasiya edilmiş dəyərdə və ya sair məcmu gəlird əks olunan ədalətli dəyərdə qiymətləndirilən maliyyə aktivinin modifikasiyası maliyyə aktivinin tanınmasının dayandırılması ilə nəticələnmədikdə Cəmiyyət ilk öncə aktivin ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə maliyyə aktivinin ümumi balans dəyərini təkrar hesablayır və alınmış düzəlişi mənfəət və ya zərərdə modifikasiya üzrə gəlir və

ya zərər kimi tanıyır. Dəyişkən dərəcəli maliyyə aktivlərində modifikasiya üzrə gəlir və ya zərəri hesablamaq üçün istifadə edilən ilkin effektiv faiz dərəcəsinin modifikasiya anında mövcud bazar şərtlərini əks etdirməsi məqsədilə düzəlişlər edilir. Modifikasiyanınbir hissəsi olan istənilən ödənilmiş x ərclər və haqlar vəalınan haqlar modifikasiyaedilmiş maliyyə aktivinin ümumi balans dəyərindəəks etdirilir vəmodifikasiya edilmiş maliyyəaktivinin qalan müddəti boyu amortizasiya edilir.

Modifikasiya borcalanın maliyyə çətinlikləri ilə bağlı həyata keçirildiyi təqdirdə gəlir və ya zərər dəyərsizləşmə zərərləri ilə birlikdə təqdim edilir. Digər hallarda isə effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri kimi təqdim edilir. Borcalanın kredit məbləğini vaxtından əvvəl əhəmiyyətli cəriməyə məruz qalmadan faizsiz ödəmək seçimi olduğu sabit dərəcəli kreditlər üçün Cəmiyyət faiz dərəcəsini dəyişkən dərəcəli maliyyə alətləri üzrə təlimatdan çıxış edərək cari bazar dərəcəsinə uyğun dəyişir. Bu o deməkdir ki, effektiv faiz dərəcəsinə də gözləntilərə uyğun düzəlişlər edilir.

Maliyyə öhdəlikləri

Cəmiyyət maliyyə öhdəliyinin tanınmasını şərtləri dəyişdikdə və dəyişmiş öhdəlik üzrə pul vəsaitləri əhəmiyyətli fərqləndikdə dayandırır. Belə olan halda dəyişmiş şərtlər əsasında yeni maliyyə öhdəliyi ədalətli dəyərdə tanınır. Maliyyə öhdəliyinin balans dəyərindəki fərq ləğv edilir və yeni maliyyə öhdəliyi dəyişmiş şərtlərlə mənfəət və ya zərərdə tanınır. Ödənilmiş kompensasiyaya ötürülmüş qeyri-maliyyə aktivləri (əgər varsa) və yeni dəyişdirilmiş maliyyə öhdəliyi daxil olmaqla öhdəliklər daxildir.

Cəmiyyət keyfiyyət amilləri, kəmiyyət amilləri və birlikdə keyfiyyət və kəmiyyət amillərini nəzərə alaraq modifikasiyanın əhəmiyyətli olub-olmadığının kəmiyyət və keyfiyyət qiymətləndirməsini aparır. Cəmiyyət aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq modifikasiyanın əhəmiyyətli olduğu qərarına gəlir:

-maliyyə öhdəliyinin valyutasının dəyişməsi;
-girov və digər kredit təminatlarının dəyişməsi;
-konvertasiya funksiyasının daxil edilməsi;
-maliyyə öhdəliyində subordinasiyanın dəyişməsi.

Yeni şərtlərə əsasən, alınmış haqlar çıxılmaqla ödənilmiş haqlar daxil və ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış cari dəyər ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin diskontlaşdırılmış cari dəyərindən ən azı 10 faiz fərqləndikdə kəmiyyət qiymətləndirməsinin şərtləri əhəmiyyətli dərəcədə fərqlənir. Maliyyə öhdəliyində modifikasiya tanınmanın dayandırılmasına səbəb olmadıqda öhdəliyin amortizasiya edilmiş dəyəri dəyişikliyə uğramış pul vəsaitlərinin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılması və alınan gəlir və ya zərərin mənfəət və ya zərərdə tanınması ilə təkrar hesablanır. Dəyişkən dərəcəli maliyyə öhdəlikləri üçün dəyişmiş gəlir və ya zərəri hesablamaq məqsədilə istifadə edilən ilkin effektiv faiz dərəcəsinə modifikasiya zamanı cari bazar şərtlərini əks etdirməsi üçün düzəlişlər edilir. Bununla bağlı yaranan hər hansı xərclər və yahaqlar öhdəliyin balans dəyərinə düzəliş kimi tanınır və alətin effektiv faiz dərəcəsinin təkrar hesablanması yolu ilə dəyişikliyə uğramış maliyyə öhdəliyinin qalan müddəti üzrə amortizasiya edilir.

Dəyərsizləşmə

Cəmiyyət mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirilən növbəti maliyyə alətlərinin gözlənilən kredit zərərləri üçün zərər ehtiyatı tanıyır:

–amortizasiya edilmiş dəyərdə ölçülən borc alətləri olan maliyyə aktivləri;
–maliyyə təminatı üzrə müqavilələr; və
–verilən kreditlər.
Cəmiyyət zərər ehtiyatlarını, 12 aylıq gözlənilən kredit zərəri kimi hesablanan aşağıdakılar istisna olmaqla, bütün müddət üçün gözlənilən kredit zərəri məbləğinə bərabər qiymətləndirir:

–hesabat tarixində kredit riski aşağı müəyyən edilən borc investisiya qiymətli kağızları;
–ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artmayan digər maliyyə alətləri.

Cəmiyyət kreditin risk dərəcəsi qlobal olaraq qəbul edilmiş "investisiya dərəcəsi" anlayışına bərabər olduğu təqdirdə borc investisiya qiymətli kağızlarının kredit riskinin aşağı olduğunu qəbul edir. 12 aylıq gözlənilən kredit zərəri hesabat tarixindən sonra 12 ay ərzində maliyyə alətinin defolt hadisəsindən yaranması gözlənilən kredit zərəri hissəsidir.

12 aylıq gözlənilən kredit zərəri tanınan maliyyə alətləri "1-ci mərhələ" maliyyə aləti adlandırılır. Bütün müddət üçün gözlənilən kredit zərəri maliyyə alətinin gözlənilən müddəti ərzində mümkün bütün defolt hadisələrindən yaranan gözlənilən kredit zərərləridir. Bütün müddət üçün gözlənilən kredit zərəri tanınan maliyyə alətləri "2-ci mərhələ" və "3-cü mərhələ" maliyyə alətləri adlandırılır.

Gözlənilən kredit zərərlərinin ölçülməsi

Gözlənilən kredit zərərləri kredit zərərlərinin ehtimal əsasında qiymətləndirilməsidir və aşağıdakı kimi ölçülür:

— hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş maliyyə aktivləri: bütün gözlənilən əldə edilməmiş pul vəsaitlərinin cari dəyəri
– yəni müqavilə əsasında müəssisəyə ödənilməli pul axınları ilə Cəmiyyətin əldə etməyi gözlədiyi pul axınları arasındakı fərq;
— hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri: ümumi balans dəyəri ilə hesablanmış gələcək pul axınları arasındakı fərq;
— istifadə edilməmiş kredit öhdəlikləri: kredit istifadə edildikdə Cəmiyyətə ödənilməli pul vəsaitləri ilə Cəmiyyətin əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərqin cari dəyəri; və
— maliyyə zəmanəti üzrə müqavilələr: Cəmiyyətin bərpa etməyi gözlədiyi məbləğlər çıxılmaqla ödənilməsi gözlənilən borcların cari dəyəri.

**Kreditor borcları**

Ticarət və digər kreditor borcları digər tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirdikdə tanınır. İlkin tanınma zamanı kreditor borcları ədalətli dəyəri ilə tanınır və sonrakı dövrlərdə amortizasiya olunmuş dəyər ilə ölçülür. Qısa-müddətli olduğuna görə kreditor borclarında yenidən ölçülmə adətən tətbiq olunmur.

**İşçilərə ödənişlər**

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət, mükafatlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Vergilər**

Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasının qanunları əsasında hesablanır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri öhdəlik metodundan istifadə etməklə müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış mənfəət şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvilin və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəlməyəndə və əməliyyat zamanı nə uçot mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə və ya zərərə təsir göstərmədiyi hallarda, təxirə salınmış mənfəət vergisi aktivlərinin və öhdəliklərinin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün balans dəyərləri arasında bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış vergi aktivləri yalnız bu dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin istifadə edilə bilməsi üçün vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun. Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür.

Bundan əlavə, Azərbaycanda Cəmiyyətin fəaliyyəti ilə bağlı əmlak vergisi, ödəmə mənbəyində tutulan vergi və sair müxtəlif əməliyyat vergiləri tətbiq edilir. Bu Vergilər ümumi və inzibati xərclərin tərkibinə daxil edilir.

**Əlaqəli tərəflər**

Əlaqəli tərəflər haqqında məlumat MUBS 24-ə "Əlaqəli tərəflər barədə açıqlamalar" uyğun olaraq açıqlanır.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərələrin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtəri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər.

Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

## 3. ƏMƏLİYYAT GƏLİRLƏRİ

Əməliyyat gəlirləri aşağıdakılardan ibarətdir:

| | 2022 | 2021 |
|---|---|---|
| Diling əməliyyat gəlirləri | 485,707 | 722,402 |
| Vasitəçilik xidmətləri üzrə gəlirlər | 296,261 | 304,564 |
| Fərdi portfel idarəetmə gəlirləri | 64,272 | 41,506 |
| Marja ticarət gəliri | 24,477 | 31,383 |
| Maliyyə girovu üzrə gəlirlər | 1,617 | 1,318 |
| Maliyyə məsləhət xidməti üzrə gəlirlər | 15,700 | - |
| Anderraytinq xidməti üzrə gəlirlər | 2,552 | 9,591 |
| İnvestisiya xidmətinin təşkili üzrə gəlirlər | 1,000 | 850 |
| Digər əməliyyat gəliri | - | 16 |
| **CƏMİ ƏMƏLIYYAT GƏLIRI** | **891,586** | **1,111,630** |

## 4. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

İşçi heyəti ilə bağlı xərclər aşağıdakılardan ibarətdir:

| | 2022 | 2021 |
|---|---|---|
| Əmək haqqı | 197,894 | 195,751 |
| Sosial sığorta ödənişləri | 36,137 | 34,237 |
| Təlim | - | 39,854 |
| **CƏMİ İŞÇI HEYƏTI ILƏ BAĞLI XƏRCLƏR** | **234,031** | **269,842** |

Sosial sığorta ödənişləri Məcburi Dövlət Sosial sığorta haqlarından, İşsizlikdən sığorta haqqlardan və İcbari Tibbi siğortadan ibarətdir.

## 5. KOMİSSİYA XƏRCLƏRİ

2022-ci il üzrə Cəmiyyətin komissiya xərcləri 280,051 AZN təşkil edib (2021: 307,640 AZN). Komissiya xərcləri Cəmiyyətin səhmlər və digər qiymətli kağızların alınması və satılması əməliyyatlarının aparılması üçün müxtəlif investisiya platformaları tərəfindən tutulan komissiyalardan ibarətdir.

## 6. AGENT XƏRCLƏRİ

2022-ci il üzrə Cəmiyyətin agent xərcləri 2,520 AZN təşkil edib (2021: 42,097 AZN). Agent xərcləri Cəmiyyətin müştərisi ilə aparılmış əməliyyatlardan yaranmış gəlirin müəyyən bir faizin Agentlə bölüşdürülməsindən ibarətdir.

## 7. DİGƏR ƏMƏLİYYAT XƏRCLƏRİ

Digər əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | **2022** | **2021** |
|---|---|---|
| Təlim xərcləri | 130,400 | 162,870 |
| İT xidmətləri | 67,490 | 59,555 |
| Hüquq xidmətləri | 23,400 | 20,400 |
| Reklam və marketinq | 22,760 | 44,271 |
| İcarə | 18,000 | 18,000 |
| Mühasibatlıq və audit | 13,430 | 37,540 |
| Müştəri portfelinin idarə edilməsindən zərər | 12,056 | - |
| Ofis xərcləri | 11,104 | 5,544 |
| Ezamiyyə xərcləri | 2,895 | - |
| Cərimələr və sanksiyalar | 2,500 | - |
| Amortizasiya | 2,297 | 10,817 |
| Sair əməliyyat xərcləri | 13,881 | 9,823 |
| **CƏMİ DIGƏR ƏMƏLIYYAT XƏRCLƏRI** | **320,213** | **368,820** |

## 8. FAİZ XƏRCLƏRİ

2022-ci il üzrə Cəmiyyətin faiz xərcləri 1,353 AZN təşkil edib (2021: 101,178 AZN). Faiz xərcləri Cəmiyyətin yeniden satınalma müqavilələri (REPO) üzrə hesablanan faizləri təşkil edir.

## 9. MƏNFƏƏT VERGİSİ

| | **2022** | **2021** |
|---|---|---|
| Cari mənfəət vergisi | (22,720) | (27,926) |
| Təxirə salınmış mənfəət vergisi üzrə xərc | (1,437) | (1,395) |
| **CƏMİ MƏNFƏƏT VERGİSİ** | **(24,157)** | **(29,320)** |

Mənfəət vergisi üzrə xərc aşağıdakı kimi hesablanmışdır:

| | 2022 | 2021 |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | **123,249** | **149,087** |
| - 20% həcmində hesablanmış mənfəət vergisi | (24,649) | (29,817) |
| - Digər fərqlər | 492 | 497 |
| **CƏMİ MƏNFƏƏT VERGİSİ** | **(24,157)** | **(29,320)** |

## 10. QEYRİ-MADDİ AKTİVLƏR VƏ ƏSAS VƏSAİTLƏR

| | Qeyri-maddi aktivlər | Ofis avadanlığı | Cəmi qeyri-maddi aktivlər və əsas vəsaitlər |
|---|---|---|---|
| **İlkin dəyər:** | | | |
| **1 Yanvar 2021-ci il** | **88,233** | **10,635** | **98,868** |
| **Alış** | 8,710 | 7,320 | 16,030 |
| **31 Dekabr 2021-ci il** | **96,943** | **17,955** | **114,898** |
| **Alış** | - | - | - |
| **31 Dekabr 2022-ci il** | **96,943** | **17,955** | **114,898** |
| **Yığılmış amortizasiya:** | | | |
| **1 Yanvar 2021-ci il** | **-** | **(3,466)** | **(3,466)** |
| Amortizasiya xərci | (261) | (3,584) | (3,845) |
| **31 Dekabr 2021-ci il** | **(261)** | **(7,050)** | **(7,311)** |
| Amortizasiya xərci | (261) | (2,036) | (2,297) |
| **31 Dekabr 2022-ci il** | **(522)** | **(9,086)** | **(9,608)** |
| **Xalis balans dəyəri:** | | | |
| **31 dekabr 2021-ci il** | **96,682** | **10,905** | **107,587** |
| **31 dekabr 2022-ci il** | **96,421** | **8,869** | **105,290** |

Cəmiyyətin qeyri-maddi aktiv kimi tanıdığı 60,000 AZN məbləğ Bakı Fond Birjasına ödənilən birdəfəlik üzvlük haqqıdır. Aktivin müddəti qeyri-məhdud olduğu üçün onun amortizasiyası hesablanmır. Aktiv hər ilin sonunda qiymətdən düşməyə görə rəhbərlik tərəfindən yoxlanılır.

## 11. UZUN-MÜDDƏTLİ İNVESTİSİYALAR

Uzunmüddətli investisiyalar aşağıdakılardan ibarətdir:

| | 31 Dekabr 2022 | 31 Dekabr 2021 |
|---|---|---|
| Borc istiqrazları | 410,000 | - |
| Səhmlər | 48,600 | 48,600 |
| **UZUNMÜDDƏTLİ İNVESTİSİYALAR** | **458,600** | **48,600** |

## 12. PUL VƏ PUL EKVİVALENTLƏRİ

Pul və pul ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | 31 Dekabr 2022 | 31 Dekabr 2021 |
|---|---|---|
| Cari bank hesabları manat ilə | 749,462 | 2,498,746 |
| Cari bank hesabları valyuta ilə | 178,223 | 522,102 |
| Xarici investisiya platformalarında hesablar valyuta ilə | 50,874 | 185,197 |
| **CƏMİ PUL VƏ PUL EKVIVALENTLƏRI** | **978,559** | **3,206,045** |

749,462 AZN (2021: 2,498,746 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin AZN cari hesabların qalığlarından ibarətdir. Bu məbləğdən 3,854 AZN (2021: 1,650,000 AZN) Cəmiyyətin müştəriləri tərəfindən bankda saxlanılan pul qalıqlarından ibarətdir.

178,223 AZN (2021: 522,102 AZN) məbləğində pul və pul ekvivalentləri Cəmiyyətin USD cari hesabların qalığından ibarətdir. Bu məbləğdən 7,089 AZN (2021: 196,543 AZN) Cəmiyyətin müştəriləri tərəfindən bankda saxlanılan pul qalıqlarından ibarətdir.

## 13. MÜŞTƏRİLƏRİN İNVESTİSİYA PORTFELİ

31 dekabr 2022 və 2021-ci il tarixinə bitən il üzrə müştərilərin qısa-müddətli investisiya portfeli tamamən fərdi portfel investisiyalarından ibarət idi və müvafiq olaraq 2,203,691 AZN və 172,774 AZN təşkil edirdi.

## 14. ADİ SƏHMLƏR

Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə nizamnamə kapitalı hər birinin nominal dəyəri 1,000 AZN olan 350 ədəd səhmdən ibarət olmuşdur. 31 dekabr 2018-ci il tarixinə səhmlərin 100%-i "Bank BTB" ASC-ya məxsusdur.

13 mart 2019-cu il tarixli Cəmiyyətin Səhmdarının MŞ-054/02-2019 nömrəli qərarı ilə 13 iyun 2019-cu il tarixində Cəmiyyətin nizamnamə kapitalında hər birinin nominal dəyəri 1,000 AZN olan 250 ədəd səhmin alışı üçün nizamnamə kapitalına investisiya qoyulmuşdur. Səhmlərin 100%-i "Bank BTB" ASC-ya məxsusdur.

24 Oktyabr 2019-cu il tarixli Cəmiyyətinin Səhmdarının MŞ-280/01-2019 nömrəli qərarı ilə 17 dekabr 2019-cu il tarixində Cəmiyyətin nizamnamə kapitalında hər birinin nominal dəyəri 1,000 AZN olan əlavə 400 ədəd adi səhmin alışı üçün nizamnamə kapitalına investisiya qoyulmuşdur. Səhmlərin 100%-i "Bank BTB" ASC-ya məxsusdur.

2022-ci il üzrə nizamnamə kapitalına investisiya qoyuluşu edilməmişdir. Beləliklə, 31 Dekabr 2022-ci il tarixinə Cəmiyyətin cəmi səhmlərin dəyəri 1,000,000 AZN təşkil etmişdir (2021: 1,000,000 AZN)

## 15. QISA-MÜDDƏTLİ İNVESTİSİYALAR ÜZRƏ ÖHDƏLİKLƏR

Qısa-müddətli investisiyalar üzrə öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Məqsədli maliyyələşmələr və daxilolmalar (manatla) | - | 1,650,000 |
| Kliring (valyuta ilə) | 2,254,612 | 354,247 |
| Məqsədli maliyyələşmələr və daxilolmalar (valyuta ilə) | 4,123 | 171,360 |
| Fərdi portfel investisiyalari (valyuta ilə) | 5,525 | - |
| **CƏMİ QISAMÜDDƏTLI INVESTISIYALAR ÜZRƏ ÖHDƏLIKLƏR** | **2,264,260** | **2,175,607** |

## 16. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖHDƏLİKLƏR

Kreditor borcları və digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Ticarət kreditor borcları | 77,283 | 70,983 |
| İşçilərə olan öhdəliklər | 2,194 | 24,097 |
| Vergi öhdəlikləri | 16,352 | 11,120 |
| DSMF öhdəlikləri | 4,140 | 8,540 |
| **CƏMİ KREDITOR BORCLARI VƏ DIGƏR ÖHDƏLIKLƏR** | **99,969** | **114,740** |

## 17. ƏLAQƏLİ TƏRƏFLƏR İLƏ ƏMƏLİYYATLAR

| | 2022 | | 2021 | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| ƏMƏLİYYAT GƏLİRİ: | | 891,586 | | 1,111,630 |
| Səhmdar | - | | 351,187 | |
| FAİZ GƏLİRİ: | | 78,874 | | 122,549 |
| Səhmdar | 78,784 | | 122,549 | |
| PUL VƏ PUL EKVİVALENTLƏRİ | | 978,559 | | 3,206,045 |
| Səhmdar | 927,685 | | 3,038,158 | |

## 18. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ OLUNMASI

Risklərin idarə edilməsi funksiyası Cəmiyyət tərəfindən maliyyə riskləri (kredit riski, valyuta, likvidlik və faiz riski), əməliyyat riskləri və hüquq riskləri ilə əlaqədar icra edilir. Risklərin idarə edilməsi funksiyasının əsas məqsədi risk sərhədlərini təyin etmək və sonradan riskərin o sərhədlər arasında saxlanılmasını təmin etməkdir.

### Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallar, kredit riski kimi tanınır. Cəmiyyətin fəaliyyəti üçün əsas risk mənbələri broker şirkətləri və fərdi müştərilərdir. Yeni bir münasibət yaranarkən broker şirkəti kredit riskinin parametrlərinə uyğun təhlil edilir və təhlil hər altı aydan bir yenilənir (və ya daha tez-tez, məsələn, brokerin korporativ strukturunda dəyişiklik olduqda). Bu broker şirkəti üçün nəzərdə tutulan maksimum məruz edilmə limitləri, sonra direktor tərəfindən nəzərdən keçirilir və təsdiq edilir. Konsentrasiya riskinin idarə olunmasının bir hissəsi olaraq, Cəmiyyət hər bir aktiv sinfi üçün bir çox brokerlərin saxlanmasını dəstəkləyir.

Mümkün olduğu təqdirdə, Cəmiyyət müştərinin mövqeyini qorumaq üçün onun əlavə vəsaitlər təmin etməsi üçün danışıqlar aparır ki, bu da birbaşa kredit riskini azalda bilər.

Cəmiyyətin hesabat tarixinə kredit riskinə məruz qalan aktivləri və ödhəlikləri əhəmiyyətli olmamışdır və beləliklə kredit risklərinə məruz qalmanın maliyyə hesabatlarına təsiri əhəmiyyətsizdir.

### Bazar riski

Cəmiyyət bazar riskinə məruz qalır. Bazar riski ümumi və xüsusi bazar dəyişiklərinə məruz qalan xarici valyuta və faiz gəliri/xərci yaradan aktiv və öhdəliklərdə olan açıq mövqedən yaranır. Rəhbərlik qəbul edilə bilən risk səviyyələri üzrə məhdudiyyətlər təyin edir və onların gündəlik monitorinqini keçirir. Buna baxmayaraq, bu metodun istifadə edilməsi daha zəruri bazar dəyişikləri baş verdikdə bu çərçivələrdən kənar zərərlərin qarşısını ala bilməz.

### Xarici valyuta riski

Xarici valyuta riskini idarə edərkən Rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Nəzarət hər ay həyata keçirilir.

Cəmiyyətin 31 dekabr 2022 və 2021-ci il tarixlərinə ABŞ dollar və AVRO ilə aşağıdakı maliyyə aktivləri və öhdəlikləri vardır:

| | **31 Dekabr 2022** | **31 Dekabr 2021** |
|---|---|---|
| Pul və pul ekvivalentləri | 229,097 | 707,299 |
| Müştərilərin investisiya portfeli | 2,203,691 | 172,774 |
| Qisa-müddətli investisiyalar üzrə öhdəliklər | (2,264,260) | (525,607) |
| **Xalis valyuta mövqeyi** | **168,258** | **354,466** |

Hesabat tarixinə xarici valyuta riskinə məruz qalan aktivlər öhdəliklərnən daha çox olduğunu nəzərə alaraq valyuta riski mövcud deyil.

**Likvidlik riski**

Likvidlik riski maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir.

Cəmiyyətin 31 dekabr 2022 və 2021-ci il tarixlərinə bütün maliyyə öhdəlikləri qısa-müddətlidir.

## 19. ŞƏRTI ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RISKLƏRI

**Vergi qanunvericiliyi**

Cəmiyyətə tətbiq edilən vergi, valyuta qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Azərbaycan vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəalyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta ilə bağlı Cəmiyyətin mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

**Kapital məsrəfləri ilə bağlı öhdəliklər**

31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri mövcud olmamışdır.

## 20. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat dövründən sonra Cəmiyyətdə baş vermis əhəmiyyətli hadisələr qeydə alınmamışdı.